# HALAL VƏ ƏXLAQLI YAŞAMAQ QƏHRƏMANLIĞI

(*Əvvəli 14-cü səhifədə*)

Camal müəllim bu xəbərdən çox sevindi, çünki bu xəbər onun çoxsaylı xeyirxah, alicənab əməllərindən birinə verilən yüksək dəyər, yüksək qiymət idi. Onların hər üçünü də tanıyan Camal müəllim bir anlığa keçmiş xatirələrə qayıtdı və onlar haqqında ürəkdolusu danışdı.

Bütün ömrü boyu insana və insanlığa xeyirxah əməlləri ilə xidmət edən Camal müəllim çox səbirli, təmkinli, şükürlü bir Allah adamı idi. Ömrünün son beş ilini yataq xəstəsi olanda da Camal müəllim Haqqa bağlılığını, şükranlılığını bir an da olsa azaltmadı. Həyatda sağlığında necə məğrur, əyilməz idisə, sağalmaz xəstəlik qarşısında da son ana qədər əyilmədi, ucalığını, aliliyini qoruyub saxladı. Hər həftə zəngləşib hal-əhvalını soruşanda "bu yazıya da şükür" deyirdi. Və "sənin səsini eşidəndə, mənə yaşamaq həvəsi gəlir, indi dünyanın, insanlığın etibarı çox azalıb, mənə daha zəng vurub əhvalımla maraqlananlar tək-təkdir, demək olar ki, yoxdur".

Mənsə vaxtilə yazdığım və Camal müəllimin də zamanında təqdir etdiyi iki misramı təskinlik üçün yendən ona xatirladıb dedim ki, ay Camal müəllim:

Allah sevdiyinə bəxş edər dərdi,
Ən cox sevdiyi də peğəmbərlərdi.

Siz Allahın sevib-seçdiyi əziz bəndələrindənsiniz ki, o, Sizi həyatda hər cür imtahan etdiyi üçün və hər imtahandan da üzüağ, alnıaçıq çıxartdığı kimi, indi də dərdlə, xəstəliklə sınağa çəkir, inşallah, hər şey yaxşı olar, Allah böyükdür.

Əziz Camal Mustafayevi sevənlər, mən həmişə bu fikirdə olmuşam ki, zamanında dünyaya gələn böyük şəxsiyyətlər millətinə, qövmünə haqq yolunu göstərmək üçün göndərilmiş elçilərdir.

Yazıqlar olsun ki, insanlıq insan fitrətindəki böyüklüyü, bir çox hallarda, zamanında dərk edib qiymətləndirə bilmir, yaxud da qiymətləndirmək... Camal müəllim təkcə müəllim, filosof deyildi, o, həm də, sözün böyük mənasında, ilahidən zamanında göndərilmiş təmiz insanlığın, saf mənəviyyatın, işıqlı əxlaqın və uca ləyaqətin elçisi və ölçüsü idi. Ona görə də onun ruhu həmişə diri, Xalqın və Xaliqin yaddaşında yaşayan əbədi ruhdur.

**P.S.** ***Vəsiyyətinə görə doğulduğu Borçali elinin Qarayazı rayonunun Kosalı kəndində doğmalarının yanında torpağa tapşırılan Camal müəllimin yanvarın 12-si qırxıdır. Əbədiyyətə qovuşmamışdan bir neçə gün əvvəl Camal müəllimin evindən mobil telefonuma zəng gəldi. Telefonu açdım. Danışan Camal müəllimin min qayğısını, əzabını mərdanəliklə çəkən qızı idi:***

***- Xanəli müəllim, sizsiniz?!***

***- Bəli, mənəm.***

***- Mən Camal müəllimin qızıyam, atamın vəziyyəti ağırlaşıb, istəyir ki, sevdiklərinin, yaxınlarının son dəfə səsini eşitsin, telefonu qulağına tuturam, danışın...***

***Mən danışdım, ancaq bu qəfil xəbərin doğurduğu qəhərdən nə danışdığımı, necə danışdığımı xatırlaya bilmirəm. Yadımda qalan yalnız Camal müəllimin isti, doğma səsi, bir də son nəfəsinin qırıq-qırıq akkordları oldu.***

***Allah rəhmət eləsin, ruhunu bağışlasin!. .***

**Dərin ehtiramla:**



***Xanəli KƏRİMLİ,***
*filologiya üzrə fəlsəfə dktoru*
*dosent, AYB-nin üzvü.*
*Naxçıvan, 12. 12. 2017.*